**Akif QULİYEV**
Əməkdar İncəsənət Xadimi, sənətşünaslıq
üzrə fəlsəfə doktoru, professor
E-mail:quliyev_akif@mail.ru

**İslam ƏLİZADƏ**
AMK-nın magistrantı
Ünvan:Bakı, Yasamal rayonu, Ələsgər Ələkbərov 7
Email- elizadeislam06@gmail.com

# AZƏRBAYCANDA DİNİ MAHNI ƏNƏNƏSİNİN TƏDQİQİ MƏSƏLƏLƏRİ

***Xülasə:*** *Məqalədə Azərbaycanda icra olunan islam dini mərasimləri ilə bağlı yeni musiqi formalarının - dini mahnıların "dirçəlişi" məsələlərinə baxılır. İslam dini ideyalarının yayılması və təbliği funksiyasını yerinə yetirən yaranmış yeni musiqi kollektivlərinin rolu və repertuarının öyrənilməsinin aktuallığı qeyd edilir.*
***Açar sözlər:*** *din, islam, mahnı, "ilahi", "Əhli-beyt"*

Musiqi bütün tarixi dövrlərdə dinlərin ideya-məzmununun dərk edilməsi prosesində əvəzsiz bir faktor olmuşdur. Haqqında nə qədər müxtəlif, ziddiyyətli fikirlər olsa da, bütün bunlara baxmayaraq, musiqi islamın ayin-mərasimlərində də özünəməxsus yer tutmuşdur. Bu mənada musiqişünas Ə.Babayevanın "İslamda musiqi: tarix və müasirlik" məqaləsində dini-hüquqi qanunvericilər arasında indiyədək musiqiyə dair mövcud olan ziddiyyət və fikir ayrılığı belə differensiasiya edilir;

"1. Musiqi şəriətə görə qadağan edilir;

2. Musiqi alətlərində ifa etmək həm qadağandır, həm də qadağan deyil. Yəni ifaya görə nə cəza var, nə də mükafat;

3. Musiqiyə nə icazə verilir, nə də qadağan olunur. Yəni buna dair heç bir dəqiq elmi fikir mövcud deyil;

4. Musiqi nəinki qadağan olunmur, nəinki ifaya icazə verilmir, hətta bu çox gözəl və gərəkli iş sayılır." (2, s. 64 ).

İslamda musiqinin mövcudluğunu müqəddəs kitab – Quranın avazla oxunması və yaxud azanın uca məscid minarəsindən muğam üstə səsləndirilməsi, "şəbih" mərasimlərinin zəngin xalq yaradıcılığından bəhrələnmiş geniş musiqi tərtibatı və yaxud tamamilə musiqi dünyası ilə bürünmüş dərviş ənənəsi təsdiqləyir.

Azərbaycanda islam dini ənənəsində musiqi uzun zaman heç bir ciddi inkişafa məruz qalmadan müəyyən qaydalar çərçivəsində mövcud olmuş və demək olar ki, heç bir yeniliyi ilə seçilməmişdir.

Müəyyən zaman daxilində konkret ictimai-siyasi təqiblər və məhrumiyyətlər nəticəsində islam mərasim sistemini təşkil edən müxtəlif atributlara, ö cümlədən, musiqi tərtibatına da qoyulan qadağalar onların zəngin musiqi ənənəsinin də unudulmasına səbəb olmuşdur.

Məlumdur ki, XX əsrin əvvəllərində Azərbaycanda qurulan yeni siyasi rejimin bütövlükdə dinin təbliğinə və fəaliyyətinə qarşı çox sərt qadağaların irəli sürməsi hesabına bu sahədə, demək olar ki, böyük bir boşluq əmələ gəlmişdir. Uzun zaman müxtəlif dini mərasimlər və onların tərkib hissəsi olan musiqi formaları həmin qadağaların qurbanına çevrilmişdir. Yalnız bir əsrdən sonra, XX əsrin sonu və XX1 əsrin əvvəllərindən başlayaraq, yəni Azərbaycan tam müstəqillik əldə etdikdən sonra dini sahədə baş verən canlanma dini mərasim və tədbirlərin tərtibində də müəyyən inkişafın yaranmasına səbəb olmuşdur. Məhz bu dövrdən başlayaraq elmi araşdırma mövzusu olan dini musiqi musiqişünaslarımız tərəfindən də aktuallıq qazanır. Belə ki, artıq XX əsrin ikinci yarısında S.Fərhadovanın “Azərbaycan mərasim musiqisi” adlı monoqrafiyasında (5) milli musiqişünaslıqda ilk dəfə olaraq mərsiyə - dini matəm oxumalarının geniş nəzəri təhlili verilmişdir. “Mərsiyə (ərəbcə - matəm şeiri; ağlama) – ağı və bayatı ilə yanaşı qədim dövrlərdən mövcud olaraq dəfn mərasimlərinə daxil olmuş, sonralar “Şəbih” tamaşalarında da oxunmuşdur. Xalq mahnılarına yaxınlığı ilə bərabər mərsiyələrin özünəməxsus üslub xüsusiyyətləri var. Mərsiyələrin forması tezis-mövzunun variantlarla təkrarı nəticəsində yaranır. Melodikası üçün kiçik sekunda və tersiya çərçivəsində aşağı enməsi, istinad pərdəsi ətrafında gəzişmə, punktir və sinkopalı ritmlər səciyyəvidir” (5, s. 19).

Daha sonra S.Seyidovanın (4) tədqiqat işlərində də qədim matəm oxumalarının dini mərasimlə bağlılığı araşdırılmışdır. Artıq müstəqillik dövründə Azərbaycan musiqi elmində ilk dəfə olaraq islam dini sistemində musiqinin funksional rolunun kompleks şəklində tədqiqi Ə.Babayevanın (2) elmi araşdırmalarında əksini tapır. Həmin dövrdə dini mahnıları dərviş toyu kontekstində (1), türk dini mərasim musiqisi ilə müqayisəli aspektdə (3) və s. rakurslarda öyrənən digər elmi işlər də meydana gəlir.

İslama “qayıdış” cəmiyyətin həyatında bir çox unudulmuş dini ənənələrin dirçəlməsinə gətirib çıxarmışdır. Bunların sırasında dini mahnılara olan maraq artmış, bununla bağlı bir çox dini musiqi kollektivləri (hətta qızlardan ibarət xorlar) fəaliyyətə başlamış, dərviş toyları, bir sıra dini musiqi festivalları, dini musiqidən ibarət «konsertlər» təşkil edilmişdir. Dinin təbliğində çoxlu sayda «ilahi» musiqinin yayılması ilə məşğul olan səsyazma studiyalarının fəaliyyəti də önəmli olmuşdur.

Son dövrlərdə respublikada fəaliyyət göstərən və dini məzmunlu poetik mətn və musiqinin təbliğilə məşğul olan bir sıra kollektivlər repertuarlarının genişliyilə diqqəti cəlb edir. Bunlar «Əhli-beyt» məddahlar qrupu (yaradıcısı Hacı Yaşardır, ilk dəfə olaraq dərviş toylarında çıxış etmiş, 60-dan artıqdini mahnı

bəstələmişdir) respublikada yaranan ilk dini musiqi kollektividir. Bunun ardınca bir sıra musiqi kollektivləri fəaliyyət göstərmişdir. “Zəhra” Əhli-beyt qrupu (1990) da belə kollektivlərdən biri kimi tanınmışdır. Bu qrupun yaranmasında onun rəhbəri Hacı Rəhimə xanımın rolu xüsusi qeyd edilməlidir.

Bu qrupların çıxış etdikləri əsas tədbirlər İmam Əlinin (ə.s.) mövludu günü, Məhəmməd Peyğəmbərin (ə.s.) mövludu günü, Fatimeyi Zəhranın mövludu günü, «Qədir xum», Ramazan bayramında və s. dini hadisələrlə bağlı məclislərlə yanaşı, həm də ilahi toy məclisləridir. Nəinki respublikamızda, hətta onun sərhədlərindən də kənarda çıxış edən bu qruplar əsasən keçmiş dini ənənələrin bərpası istiqamətində mühüm rol oynayırlar. Məsələn, belə ənənələr qonşu İranda, Türkiyədə indiyədək qorunub saxlanılmış və yüksək inkişaf səviyyəsinə çatmışdır. Türkiyədə keçirilən mistik festivallar ənənə şəklini alaraq hər il təşkil olunur.

Azərbaycanda ifa edilən dini mahnıların Türkiyədə analoqu olan «ila-hilərlə» genetik yaxınlığını göstərməyi vacib bilirik. Qeyd etməliyik ki, ilahi türk dini musiqisində ən çox ifa edilən formadır. Kiçik həcmli bu formaları tədqiqatçılar məhz «dini mahnı» kimi də təqdim edirlər. Onların poetik mətnləri dini, dini-təsəvvüf şairlərinin (başda Yunus İmrə olmaqla Niyazi, Nasuhi, Osman Şəms, Dərviş Osman, Əşrəfoğlu, İbrahim Haqqi, Seyfullah və b.) şerlərinə əsaslanır. Bəzi İlahilər müəyyən bir təriqətə, məsələn, Rifai, Nəqşbəndi, Xəlvəti, Gülşəni və b. aid olduğundan yalnız onların məkanında oxunur. Bunların əksəriyyətində həmin təriqətin inancları tərənnüm edilir və onun uluları təriflənir.

Ümumi xarakterli, yəni sadəcə dini məzmunlu İlahilər də var ki, onlar məktəb və məscidlərdə oxuna bilər. Hicri ilinin müəyyən əlamətdar ayında oxunan İlahilər də mövcuddur. Məsələn, Ramazan ayında (ayın əvvəlinə, sonuna və yaxud qədr gecəsinə məxsus) oxunan «Ramazan ilahiləri» xüsusi əhəmiyyət kəsb edir. Hicri ilinin ilk ayı olan «Mühərrəm ilahiləri» məşhur Kərbəla faciəsinə həsr edilir. İlahilərin bəstələmə üsulları da müxtəlifdir. Bunlar həm kiçik, həm də böyük üsullarla bəstələnirlər.

Türkiyədə xorla oxunan İlahilər «cümhur İlahi» adını alır. Bektaşi təriqətinə məxsus ilahilər «nəfəs» adı ilə digər ilahilərdən fərqlənir. Nət və Tevşih də Peyğəmbərin vəsfinə həsr edilmiş ilahilərdir.

Bu paralelləri göstərməklə biz, dini mahnıların qonşu regionlarda daha geniş bir halda mövcudluğunu və bunların dini-tarixi bağlılığının, əlaqəsinin mümkünluyünü nəzərə çatdırmaq istərdik, bu da xüsusi tədqiqat problemi kimi həllini gözləyən vacib məsələlərdən biridir.

Azərbaycanda dini musiqi qruplarının ifa etdikləri ilahi mahnıların (bizdə bunlara bəzən «surud», ya da dini mahnı deyilir) sözləri həm klassiklərin, məsələn, Füzulinin, Nəsiminin, Racinin və b., həm də müasir şairlərin poetik mətnlərinə əsaslanır. Bunlar əsasən tərif, mədh, dua məzmunlu şerlərdir. Dini mahnıların poetik mətnləri əruz və heca vəzninə əsaslanır.

Məsələn, “Zəhra” Əhli-beyt qrupunun repertuarına daxil olan mahnılar sırasında “La ilahi illallah”, “Ya Məhəmməd”, “YA Əli, mövlan Əli”, “Aləmlərin Zəhrası”, “Ya Həsən”, “Ya Mədəd”, “Yoluna canlar fəda”, “Peyğəmbərin mövludu”, “Çağırıram, mövlam, səni” və s.

Göründüyü kimi, dini nəğmələrin adları da sübut edir ki, onların mövzu dairəsi olduqca genişdir. Lakin nə qədər geniş olsa da, onların əsas məzmununu Əhli-beyt ideyası təşkil edir.

“Əhli-beyt” kəlməsi Həzrət Peyğəmbəri sevən, ona iman gətirən və onun yolunu gedən hər bir müsəlman üçün parlaq, əzizlənən və əbədi bir kəramətin nişanəsi olan müqəddəs anlayışdır. Bu anlayışa Həzrəti Məhəmməd, Həzrət Əli, Həzrət Fatimeyi-Zəhra, Həzrət Həsən, Həzrət Hüseyn və qalan itrəti-Rəsul daxildir.

”Əhli-beyt” sözü lüğətdə “ev əhli” mənası verməsinə baxmayaraq, din terminində İslam Peyğəmbərinin ailəsi, övladları məfhumunu daşıyır və yalnız xüsusi şəxslərə aid edilir. Bu şəxslərin kim olması Peyğəmbərin özündən nəql olunan onlarca rəvayətdə, hədislərdə açıq-aşkar bəyan edilmişdir. Bu rəvayətlərdə yalnız Əli (ə), Fatimə (ə.s), Həsən (ə), Hüseyn (ə) və imam Hüseynin nəslindən olan və Peyğəmbərin vəfatından sonra dünyaya gələn doqquz nəfər o Həzrətin Əhli-beyti kimi təqdim edilmişdir. İbni Abbas “Büruc” surəsinin birinci ayəsi barəsində demişdir. Peyğəmbər (ə) buyurdu… “Mən asimanam, Əhli-beytimdən olan imamlar isə onun bürcləridir. Onlar on iki nəfərdir.” (“Yənabiul-məvəddət”, 3-cü cild, səh.253, 59-cu hədis).

“Əhli-beyt” elm, əxlaq, şərəf və həqiqət yolunda dönməzliyin, islamın elm və silah ilə müdafiəsinin, zülmə, ədalətsizliyə qarşı mübarizənin misilsiz rəmzidir. Əsrlər boyu böyük şairlər bu obrazlara şeirlər, qəsidələr həsr etmiş, mahnılar bəstələnmişdir.

Bu baxımdan Azərbaycanda son 10 ildə fəaliyyətə başlamış dini musiqi qruplarının repertuarında xüsusi yer tutan “Əhli beyt” məzmunlu mahnıların öyrənilməsi, onların ifasından çox sayda musiqi nümunələrinin nota köçürülməsi olduqca vacibdir.

Azərbaycan musiqi mədəniyyətində indiyədək tədqiq olunmayan sahə kimi dini mahnıların islam dini mərasim sistemində musiqinin forma və janrlarının inkişafında yeni mərhələni təşkil etdiyini nəzərə alaraq öyrənilməsi aktuallıq kəsb edir. Bununla bağlı bir sıra məsələlərin araşdırılmasını qarşımıza əsas vəzifə kimi qoyuruq. Bunlar:

1- Azərbaycanda dini nəğmələrin tarixi köklərini araşdırmaq;

2- Dini nəğmələrin Azərbaycanda fəaliyyət göstərən (tarixi aspektdə) sufi təriqətləri ilə əlaqəsini göstərmək;

3- Dini nəğmələrin poetik məzmununun əsasını təşkil edən janrların xarakteristikasını vermək;

4- Orta əsr şairlərinin yaradıcılığında dini poetik janrların rolunu göstərmək;

5- Müasir dövrdə yeni yaradılan dini musiqi qruplarının timsalında dini nəğmələrin yenidən dirçəlməsini müşahidə etmək;

6- Dini nəğmələrin musiqi materialının nəzəri təhlilini aparmaq (lad-intonasiya xüsusiyyətlərini, formatəşkili prinsiplərini);

7- Poetik mətnlə musiqinin qarşılıqlı əlaqəsini (metro-ritm xüsusiyyətlərini) göstərmək;

8- Bütün bunların yerinə yetirilməsi üçün materialının toplanması və musiqi nümunələrinin nota salınmasını yerinə yetirməkdən ibarətdir.

Qarşıya qoyulan əsas vəzifənin yerinə yetirilməsi üçün müasir dövrdə Azərbaycanda fəaliyyət göstərən dini musiqi qruplarının repertuarından dini mahnıların seçilərək təsnifatını aparmaq ilk növbədə yerinə yetirilməlidir. Təsnifatın poetik məzmununa (mahnıların adlarından da göründüyü kimi, bəziləri Həzrəti Peyğəmbərə (ə.s.), bəziləri Həzrəti Əliyə, bir qismi Həzrəti Fatiməyə və b. həsr edilir), kompozisiya quruluşuna (poetik forma da nəzərə alınaraq), ladintonasiya əsasına görə aparılması nəzərdə tutulur.

Dini mahnıların ifaçıları xalq musiqi yaradıcılığı ənənələri əsasında formalaşan musiqiçilər tərəfindən ifa edildiyindən onların musiqi dilində xalq musiqisi ilə dərin əlaqələrin mövcudluğu özünü aydın bildirir. Bu bir daha dini mahnı ənənəsinin universal (ümummüsəlman) və milli köklərinin qarşılıqlı əlaqəsinin araşdırılması vacibliyini şərtləndirir.

**ƏDƏBİYYAT**


1. Abdullayeva Z. Azərbaycan toy mərasim musiqisi (Dərviş toyunun təhlili əsasında). Sənətşünaslıq namizədi alimlik dərəcəsi….dissertasiyanın Avtoreferatı. B., 1996.
2. Babayeva Ə. İslamda musiqi: tarix və müasirlik. // “Konservatoriya”, 2009, № 5-6, s.63-72.
3. Babayeva Ə. Azərbaycanda islam və musiqi. B. Nurlan, 2001. 177 s.
4. Pekşen Q. Ələvi mərasimlərində musiqinin səciyyəvi xüsusiyyətləri (Türkiyə və Azərbaycan dini musiqisinin müqayisəli kontekstində). Sənətşünaslıq namizədi alimlik dərəcəsi….dissertasiyanın Avtoreferatı. B., 2003. 148 s.
5. Seyidova S. Qədim Azərbaycan mərasim musiqisi. B., Bakı, 1994. 99 s.
6. Фархадова С. Обрядовая музыка Азербайджана. Б. Элм, 1991.

**Акиф ГУЛИЕВ**
Заслуженный деятель искусств,
PhD, профессор

**Ислам АЛИЗАДЕ**
Магистрант АНК

## ВОПРОСЫ ИЗУЧЕНИЯ РЕЛИГИОЗНОЙ ПЕСЕННОЙ ТРАДИЦИИ В АЗЕРБАЙДЖАНЕ

***Резюме:*** *В статье впервые рассматривается возрождение новых музыкальных форм, таких как духовные песни, связанные с исламскими религиозными обрядами, проводимыми в Азербайджане. Отмечается актуальность изучения роли и репертуара новосозданных музыкальных групп, коллективов, которые выполняют функцию пропаганды и распространения исламских религиозных идей.*
***Ключевые слова:*** *религия, ислам, песня, «илахи», «Эхли-бейт»*

**Akif GULIYEV**
Honored art worker, PhD, professor
Azerbaijan, Baku

**Islam ALIZADE**
Master of Arts of ANC

## ISSUES OF STUDYING RELIGIOUS SONG TRADITION IN AZERBAIJAN

***Summary:*** *For the first time, the revival of new music forms –religious songs whichrelate to Islamic ceremonies in Azerbaijan are under consideration in the article. The importance of studying the repertoire and role of newly emerging musical collectives that serve thew function of the dissemination and promotion of Islamic religious ideas is emphasized.*
***Keywords:*** *religion, islam, song, "ilahi", "Ahli-Beyt".*

**Rəyçilər:** sənətşünaslıq üzrə fəlsəfə doktoru Əfsanə Babayeva
sənətşünaslıq üzrə fəlsəfə doktoru Sevda Mütəllimova